**Sərlövhəyə çıxardığımız xəbər barədə bəhs etməzdən əvvəl xatırladaq ki, yanvarın 8-də Rusiya təbii qazının Türkiyə və Avropaya nəqlini nəzərdə tutan “Türk axını” boru kəmərinin (“TurkStream”) açılış mərasimi keçirilib.**




# Cənub Qaz Dəhlizinin gələcəkdə genişlənəcəyi proqnozlaşdırılır

Bu layihə üzrə tikinti işlərinə 2017-ci ildə başlanılıb. Boru kəmərinin Qara dənizdən keçən qoşa xəttinin uzunluğu 930 kilometrdir. Kəmərin birinci xətti Türkiyə bazarı üçün, ikincisi isə Cənub və Cənub-Şərqi Avropa ölkələrinə qaz tədarükü üçün nəzərdə tutulub. Xətlərin hər birinin ötürücülük qabiliyyəti 15,75 milyard kubmetrdir.

“Türk axını” Rusiyadan Qara dəniz vasitəsilə Türkiyəyə və Türkiyənin qonşu ölkələrlə sərhədinədək uzanacaq qaz kəməri layihəsidir. Kəmərin birinci xətti Türkiyə bazarının, ikinci xətti də Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün nəzərdə tutulub. Hər xəttin nəql gücü ildə 15,75 mlrd. kubmetrdir.

Xatırladaq ki, bu kəmərin dəniz hissəsinin tikintisi 2018-ci ilin noyabrında başa çatdırılıb və onun üzərində lazım olan test işləri aparılıb. Hər iki xətt hazırdır və qazın buraxılmasını gözləyir.

Onu da qeyd etmək lazımdır ki, Türkiyənin enerji təhlükəsizliyini və tranzit potensialını artıracaq başqa bir vacib qaz nəql obyekti olan Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) artıq istifadəyə verilib.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2014-cü il sentyabrın 20-də təməli qoyulan və dəyəri 40 milyard dollardan artıq olan Cənub Qaz Dəhlizi layihəsi yüksək sürətlə reallaşdırılıb və 2018-ci il mayın 29-da Bakıda adı çəkilən dəhlizin, həmin il iyunun 12-də isə onun tərkib hissəsinin– Trans-Anadolu qaz boru kəmərinin (TANAP) rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsinin reallaşdırılması da hazırda qrafik üzrə davam etdirilir.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi və onun xüsusi elementi olan TANAP yeni bir mərhələyə qədəm qoyub. TANAP artıq Avropa sərhədinədək uzanıb. Bu isə o deməkdir ki, Azərbaycan təbii qazı yalnız Türkiyəyə deyil, Avropa bazarına nəql etmək imkanlarına nail olub. Trans-Adriatik qaz boru kəməri layihəsinin (TAP) icrasının isə 90 faiz yerinə yetirilməsi də ondan xəbər verir ki, bu il Azərbaycan qazının Avropa bazarına çıxarılması praktik olaraq reallaşacaq.

TANAP Azərbaycan, bütövlükdə region üçün mühüm layihələrdəndir. Azərbaycan TANAP vasitəsilə Türkiyə bazarına əlavə olaraq 6 milyard kubmetr qaz göndərmək imkanı əldə edib. Eyni zamanda, icrası başa çatmaqda olan TAP kəməri vasitəsilə Azərbaycan Avropa bazarına ilkin mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə 20 milyard kubmetr qaz nəql edəcək. Gələcəkdə Avropa və Türkiyə bazarlarına çıxarılacaq Azərbaycan qazının həcmi isə 31 milyard kubmetri ötəcək. Cənub Qaz Dəhlizi, eyni zamanda, TANAP Azərbaycanın strateji mövqeyini daha da möhkəmləndirməsi baxımından geosiyasi və geoiqtisadi əhəmiyyət daşıyır.

Azərbaycanın regiondakı rolunu və mövqeyini göstərən TANAP layihəsi dövlət gəlirlərimizin artmasına da birbaşa təsir göstərəcək. Ümumiyyətlə, Cənub Qaz Dəhlizi Azərbaycana 100 milyard dollardan çox gəlir gətirəcək. Bu isə ölkəmizin dövlət gəlirlərinin yeni bir mərhələdə təbii qaz satışından əldə edilən valyuta hesabına formalaşması anlamına gəlir. Bu, praktik olaraq ölkəyə daxil olan valyutanın həcminin artmasına imkan verəcək.

Bu layihə, eyni zamanda, Türkiyə və Gürcüstan üçün də çox vacibdir. Gürcüstan tranzit ölkədir. Layihənin reallaşması nəticəsində Türkiyə qaz idxalından asılılığını aradan qaldıracaq. Azərbaycan Türkiyəyə qaz ixracına görə ikinci ən böyük ölkəyə çevrilmək niyyətindədir. Bu, Azərbaycan, Gürcüstan və Türkiyə strateji əməkdaşlığının daha da güclənməsinə təkan verir.

TANAP Türkiyənin, Cənub Qaz Dəhlizi də bu ölkə ilə yanaşı, Avropanın enerji təhlükəsizliyinin təminatına töhfə verən layihədir. Cənub Qaz Dəhlizi Avropa üçün yeni alternativ mənbədir. Bu, təbii ki, Avropanın enerji xəritəsinin yenidən işlənməsində xüsusi paya malikdir.

TANAP daxil olmaqla Cənub Qaz Dəhlizinin reallaşması birbaşa Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində baş verib. Dövlət başçısının qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi ilə bağlı müzakirələr aparılan zaman bu layihənin reallaşacağına çoxu ümid etmirdi. Layihənin xərclər smetası böyük idi, maliyyələşmə məsələləri var idi. Bütün bunlara baxmayaraq, Azərbaycanın dəstəyi hesabına region üçün ən böyük layihə gerçəkləşdi. Ümumiyyətlə, Azərbaycanın dəstəyi və təşəbbüsü olmasaydı, Cənub Qaz Dəhlizinin reallaşması mümkün deyildi.

Layihə çərçivəsində Azərbaycan onunla müttəfiq olan ölkələrlə əlaqələrini daha da gücləndirdi. TANAP və Cənub Qaz Dəhlizi Azərbaycanın həyata keçirdiyi təşəbbüsdür. Region hələ uzun müddət dövlətimizin başçısının siyasi iradəsi nəticəsində reallaşmış bu təşəbbüsdən faydalana biləcək və öz enerji təhlükəsizliyini formalaşdırmış olacaq.

“S&P Global Platts” şirkətinin analitiki Ceyms Hakstepp bildirib ki, Cənub Qaz Dəhlizinin gələcəkdə genişlənəcəyi proqnozlaşdırılır. Onun sözlərinə görə, bu qaz dəhlizi layihəsi Xəzər regionundan birbaşa Avropaya ildə 16 milyard kubmetr qazın tədarükü üçün zəruri nəqliyyat gücü təqdim edəcək: “İlkin olaraq bu, Avropada qaza tələbatın 3-4 faizini reallaşdıracaq, qazın böyük hissəsi Cənubi Avropaya nəql olunacaq.

C.Hakstepp, həmçinin deyib ki, “Şahdəniz” yatağından ildə 6 milyard kubmetr qaz Türkiyə bazarına tədarük olunacaq: “Daha 10 milyard kubmetrin Trans-Adriatik boru kəməri (TAP) ilə Yunanıstan, Bolqarıstan və İtaliyaya nəqli planlaşdırılır. Yunanıstan və Bolqarıstan “Şahdəniz 2” yatağından hərəsi bir milyard qazın alınması üçün müqavilə imzalayıb. İldə 8 milyard kubmetr qaz isə İtaliyaya tədarük olunacaq”.

Şirkət 2023-cü ilədək tədarük gücünün ildə 24 milyard kubmetrədək, 2026-cı ilədək isə 31 milyard kubmetrədək genişlənəcəyini proqnozlaşdırır.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**